UOT 94(479.24)

İSMAYIL EYYUBOV
Bakı Dövlət Universitetinin
Politologiya və Sosiologiya kafedrasının dosenti,
Azərbaycan Jurnalistlər birliyinin üzvü
Ismayilov@mail.ru

HEYDƏR ƏLİYEV MÜSTƏQİL AZƏRBAYCAN DÖVLƏTİNİN BANİSİDİR

DOI: https://doi.org/10.36719/2708-065X/103/75-82

Ulu öndər Heydər Əliyevin
anadan olmasının 100 illiyiə həsr olunub

Uzun müddət Azərbaycan Respublikasının Dövlət Təhlükəsizlik Orqanlarında yüksək vəzifələrdə işləyən Heydər Əliyev 1969-cu ilin 14 uyununda Azərbaycan KPMK-in birinci katibi seçilmişdir.

Məqalədə Heydər Əliyev 1969-1082-ci illərdə Azərbaycan Respublikasının SSRİ-nin ən qabaqcıl respublikalarından birinə çevirdiyindən bəhs olunur.

Eyni zamanda Heydər Əliyev Azərbaycan Respublikasının dövlətçiliyi sayəsində böyük xidmətlər göstərmişdir.

Məqalədə Heydər Əliyevin 1982-1987-ci illərdə SSRİ Nazirlər Sovetinin sədr müavini vəzifəsində işlədiyindən də bəhs olunur.

Heydər Əliyev 3 oktyabr 1993-cü ildə Müstəqil Azərbaycan Respublikasının prezidenti seçilmişdir. O, ömrünün axırına kimi Azərbaycan dövlətçiliyinin hərtərəfli inkişaf etməsi üçün var qüvvəsi ilə çalışmişdir.

Açar sözlər: Heydər Əliyev, siyasi xadim, Azərbaycan dövlətçiliyinin inkişaf etməsi və qorunub saxlanması, Heydər Əliyevin Sovet dövrü xidməti, Müstəqil Azərbaycan dövlətçiliyinin inkişaf etdirilməsində Heydər Əliyev rolu.

Giriş. Dövlətimizin yaranmasında və inkişafında tarixi şəxsiyyətlər mühüm rol oynamışdılar. İnsanları ümumi bir məqsəd naminə səfərbər etmişdilər. Belə tarixi şəxsiyyətlərdən biri də XX əsrdə Heydər Əliyev olmuşdur.

O, istər Sovet dövründə, istərsədə Azərbaycanın Müstəqilliyi dövründə Azərbaycan dövlətinin hərtərəfli inkişaf etməsi, möhkəmlənməsi üçün əlindən gələni etmişdir.

Heydər Əliyev Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrdə Respublikanın sosial-iqtisadi, mədəni-mənəvi yüksəlişi istiqamətində böyük işlər görmüşdü.

Heydər Əliyev Azərbaycan Dövlətinin beynəlxalq aləmdə, dünya və region dövlətlərlə ikitərəfli və çoxtərəfli əlaqələrinə geniş yer vermişdi. Heydər Əliyev Azərbaycannin müstəqil dövlət maraqlarını reallaşdırmaq üçün xarici siyasət fəaliyyətini genişləndirməyə çalışmışdır.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi dövrdə respublikanın sosial-iqtisadi səviyyəsini genişləndirməyə səy göstərmişdir.

Heydər Əliyev ölkədə hər bir problem üçün ən optimal həll variantını taparaq dövrün xarakteristikasını dəyişərək müdrik addımlar atmışdır.

Heydər Əliyev istər Sovet dövründə, Azərbaycanda işlədiyi vaxt, sonrakı dövrdə Moskvada rəhbər vəzifədə olduğu vaxt, dövlətçiliyin inkişafına böyük səy göstərmişdir.

Heydər Əliyev ikinci dəfə müstəqil Azərbaycan Respublikasının prezidenti olduğu vaxt Azərbaycan dövlətinin hərtərəfli inkişafı üçün var qüvvəsi ilə çalışmışdır.

Heydər Əliyevin dövlətçilik fəaliyyətinin sovet dövrü. Tarixi dövrlərdə yaşayan böyük şəxsiyyətlər fəaliyyət göstərdikləri zamanlarda sosial, siyasi, iqtisadi və digər prosesləri öz xalqlarının rifahı naminə irəliyə aparmaqla adlarını əbədi olaraq tarixə qızıl hərflərlə yazdırmışdılar. Hər bir

xalq öz tarixi şəxsiyyətləri ilə fəxr edir, onların yaşadığı və yaratdığı irsə böyük ehtiramla yanaşırlar. Azərbaycan xalqi da hər zaman tarixi şəxsiyyətləri ilə qürur duymuşdur.

Müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqının və dövlətinin müstəqilliyinin inkişafı naminə böyük və əvəzedilməz işlər görmüş Heydər Əliyev hər zaman Azərbaycan xalqı tərəfindən dahi bir şəxsiyyət kimi xatırlanacaqdır.

O öz parlaq siyasi zəkası sayəsində XX əsrin böyük filosofu və mütəfəkkiri, dövlət xadimi olmuş, Azərbaycan Respublikasının hərtərəfli inkişaf etməsində mühüm rol oynamış tarixi şəxsiyyətlərdən biridi, bəlkədə birincisidir.

Heydər Əliyevin keçdiyi tarixi yol çox mürəkkəb və keçməkeşli yol olsada o, bu yolda böyük uğurlar qazanmışdır.

Əliyev Heydər Əlirza oğlu 1923-cü ildə Azərbaycan Respublikasının Naxşıvan şəhərində fəhlə ailəsində anadan olmuşdur. İlk təhsilini doğulduğu şəhərdə almış, sonra Naxçıvan Pedaqoji texnikomunu bitirmişdir.

1939-1941-ci illərdə Azərbaycan Sənaye institutunda oxumuş, 1941-ci ildə Naxçıvana göndərilmiş, Naxçıvan MSSR Xalq Daxili İşlər Komissarlığında, sonra isə Dövlət Təhlükəsizlik orqanlarında işləmişdir. O, 1969-cu ilə kimi Azərbaycan Dövlət Təhlükəsizlik orqanlarında yüksək vəzifələrdə işləmiş General-mayor rütbəsinə kimi yüksəlmişdir [1, s.178]

Heydər Əliyev 1969-cu ilin 14 iyununda AKPMK-nin birinci katibi seçilmişdir.

Parlaq zəka sahibi olan Heydər Əliyev Azərbaycanın hərtərəfli inkişafında istedad və bacarığını təzahür etdirmiş, zəhmətkeşlərin ictimai-siyasi fəaliyyətinin yüksəlməsində böyük rol oynamışdır.

Heydər Əliyev dövlət strukturlarında azərbaycanlıların xüsusi çəkisinin artmasını təmin etmiş, yüksək iradəçilik keyfiyyətləri əxs etməsi üçün zəruri tədbirlər həyata keçirmişdir. O, Azərbaycanda gələcək kadrların olması üçün 1970-1982-ci illərdə keçmiş SSRİ-nin ali məktəblərinə, universitetlərinə 17 mindən çox gənci oxumağa göndərmişdir. Sonralar bu gənclərin əksəriyyəti yeni ixtisaslar aldıqdan sonra Azərbaycan Respublikasına qayıdaraq müxtəlif vəzifələrdə, idarələrdə, istehsalatda, dövlət işlərində yaxından iştirak etmişdilər. Heydər Əliyevin işlədiyi ilk gündən Azərbaycan mədəni quruculuğunun inkişafına diqqəti artırmışdır. Respublikamızda əmin-amanlıq yaratmaqla sənayenin, kənd təsərrüfatının hərtərəfli inkişafına qısa bir müddətdə nail olmuşdur. O dövrdə Sovet respublikaları içərisində Azərbaycan bütün sahələrdə geridə qalmışdır. Bir neçə il ərzində ulu öndərimizin rəhbərliyi ilə Azərbaycan bütün sahələrdə geriliyi tədricən aradan qaldırmışdı. Azərbaycan ən yüksək inkişaf etmiş respublikalardan birinə çevrilmişdir.

Heydər Əliyev eyni zamanda Azərbaycanda digər respublardan fərqli olraq sağlam mənəvi-siyasi şəraitin bərqərar olmasına çalışmışdır.

1970-ci illərin əvvəllərindən başlayaraq Azərbaycan iqtisadiyyatı surətlə inkişaf etməyə başlamışdır. 1970-1982-ci illərdə Azərbaycan 11 dəfə Ümumittifaq Sosializm yarışının qalibi olmuşdur.

Heydər Əliyev respublikaya rəhbərlik etdiyi zaman bütün nöqsanlara qarşı barışmaz olmuş, yüksək tələbkarlıqla kütlələrlə daim əlaqə saxlamış, insanlara həssas qayğı münasibəti bəsləmişdir. Heydər Əliyev bütün ömrü boyu Azərbaycan xalqının savadlanması, dünyagörüşlərinin artması sağlamlıqlarının qorunması sahəsinə daha çox diqqət yetirmişdir.

Heydər Əliyev respublikada işlədiyi zaman SSRİ Ali Sovetinin VIII-X çağırış deputatı olmuş, IX çağırış SSRİ Ali Sovetinin sədr müavini seçilmişdir.

Eyni zamanda Heydər Əliyev Azərbaycan Ali Sovetinin VII-X-cu çağırış deputatı olmuş, Ali Sovetin rəyasət heyyətinin üzvü olmuşdur.

Heydər Əliyev işgüzar fəaliyyətinə görə SSRİ Ali Soveti tərəfindən dörd dəfə Lenin ordeni ilə, Qırmızı ulduz ordeni və müxtəlif medallarla təltif olunmuşdur. İki dəfə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.

Ulu öndər 1978-ci idə Azərbaycan SSRİ-nin Konstitusiya layihəsi qəbul edərkən Azərbaycan dilinin bu ali sənədə dövlət dili kimi təsbitlənməsi və qorunub saxlanması sayəsində irəli sürdüyü fikir Azərbaycan dövlətçiliyində böyük bir tarixi hadisə kimi səslənmişdir.

Sovet hakimiyyəti dövründə respublika rəhbərliyinə ana dilində çıxış etməyə icazə vermirdilər. Lakin Heydər Əliyev katib işlədiyi vaxt ilk dəfə olraq S.M.Kirov adına Azərbaycan Dövlət Universi-

tetinin 50 illik yubileyində, ikinci dəfə isə 26 dekabr 1969-cu ildə universitetin IV partiya konfransında Azərbaycan dilində çıxış etmişdir [2, s.1-2].

Heydər Əliyev hər il respublikamızın bütün rayonlarını gəzmiş, taxıl, pambıq sahələrində, üzüm, çay plantasiyalarında, meyvəçilik rayonlarında olmuş, dəfələrlə koxozçularla görüşmüş, onları əmək işlərinə istiqamətləndirmiş, hərtərəfli kolxozçuların işlərinə köməkliyini göstərmişdir. Əmək adamlarını həvəsləndirmiş, onların lazımi texniki avadanlıqlarla təmin olunmasına kömək göstərmişdir. Bütün bunlarda, hər il kolxozlarda, sovxozlarda kənd təsərrüfatı məhsullarının artırılmasında öz bəhrəsini vermişdir.

Onun rəhbərliyi dövründə Azərbaycan kəndlisinin güzəranı da xeyli yaxşılaşmışdı. Azərbaycan kəndlərində, qəsəbələrində, şənərlərində yeni tikinti-abadlıq işləri genişlənmiş, yeni mədəni quruculuq sahələri yaranmışdır. Azərbaycanda bu dövrdə yüzlərlə fabrik və zavodlar inşa edilərək istifadəyə verilmişdir.

Heydər Əliyev bu dövürdə Azərbaycanda güclü neft sənayesinin yaradılmasına da diqqəti artırmışdır. Yeni neft buruqlarının qazılması, neftin çıxarılması, emalı sahəsinə də diqqət yetirmişdir.

Bir çox istehsal sahələrinə görə Azərbaycan Sovet İttifaqında qabaqcıl respublikalardan birinə çevrilmişdir. Onun Sovrt Azərbaycanına rəhbərliyi dövründə respublikamızda sağlam mənəvi-siyasi mühit bərqərar olmuş, iqtisadiyyatın, elmin, mədəniyyətin inkişafında böyük nailiyyətlər əldə edilmişdir.

Heydər Əliyev ilk vəzifə səlahiyyətləırini yerinə yetirdiyi ilk gündən respublikada böyük bir gələcək inkişafın başlanğıcı özünün göstərmişdir. Heydər Əliyev Azərbaycan Respublikasında katib işlədiyi dövrdə qarşıya çıxan problemləri düzgün müəyyənləşdirməklə yanaşı, onların həlli üçün lazımi iradə, qətiyyət, prisipiallıq göstərməklə həll etməyə çalışmışdır.

O, Sovet dövrünün imkanlarından istifadə edərək Azərbaycanda yeni müstəqil sənaye sahələrinin yaradılması istiqamətində mühüm tədbirlər həyata keçirmişdir.

Elmi- texniki tərəqqinin nailiyyətləri, mütərəqqi texnologiyaların istehsalata tətbiqi nəticəsində Azərbaycanı bütün SSRİ-də qabaqcıl mövqelərə çıxmasına, sosial-iqtisadi həyata, yüksəlişə qovuşdurmuşdur.

O, 1969-1982-ci illərdə Azərbaycana rəhbərlik etdiyi dövrdə respublikada ilk növbədə dövlətçilik ideyalarının həyata keçirilməsinə ciddi səylə yanaşmışdır. Heydər Əliyev Azərbaycanın suverenliyinin, dövlətçiliyinin, müstəqilliyinin demək olar ki, 13 ildə ikl təməlini yaratmışdır.

Heydər Əliyev Sovet hakimiyyəti dövründə Azərbaycanın iqtisadi və mənəvi həyatının inkişafına və yüksəlməsinə xüsusi diqqət yetirmişdir. Onun səyi nəticəsində Azərbaycan Respublikası SSRİ-nin 11 dəfə "Keçici Qızıl Bayrağı"na sahib olmuşdur.

Heydər Əliyevin tələbkar və işgüzar fəaliyyəti sayəsində Azərbaycan 1982-ci ildə SSRİ-nin ən inkişaf etmiş respublikalarından biri kimi tanınmış, iqtisadi inkişaf göstəriciləri baxımından digər ittifaq respublikalarından xeyli fərqlənmişdir. Heydər Əliyev 1982-ci ilin dekabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçılmış, SSRİ Nazirlər Soveti Sədrinin birinci müavini vəzifəsinə təyin olunmuşdur. Heydər Əliyev Moskvada işlədiyi zaman üzərinə düşən vəzifələrin uğurla həyata keçirilməsinə böyük işgüzarlıq və bacarıqla yanaşmışdır.

1985-ci ilin martında K.U. Çernenkonun vəfatından sonra onun yerinə M.Ş. Qorbaçovun Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Kommitəsinin baş katibi seçılməsi nəyin ki, siyasi büroda, eyni zamanda bütün keçmiş SSRİ-nin 15 respublikasında təhlükələrin artmasına səbəb olmuşdur.

Heydər Əliyev bu dövürdə respublikalarla, digər yaxın və uzaq ölkələrlə əlaqələri genişləndirməyə səy göstərsədə ətrafında cərəyan edən hadisələrə daxili aləmində dözə bilməmişdir. Bu dövrdə Heydər Əliyev 15-ə yaxın Nazirliyə və baş idarələrə ümumi rəhbərlik edirdi. Üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlməyə çalışsada, bəzi mürəkkəb hadisələrlə üzləşirdi.

Bu dövrdə Heydər Əliyev xüsusi olaraq Baykal-Amur magistralının qaydaya salınması, Qazaxıstanda, Astanada, Kazanda, Çuvaşiya MR-də və digər bölgələrdə çatışmamazlıqların aradan qaldırılmasına yardım etməyi öz üzərinə götürmüşdür. Heydər Əliyev harada işləməsindən asılı olmayaraq bütün dövrlərdə Azərbaycanlı gənclərin hərtərəfli inkişafı məsələsinə də diqqət yetirmişdir. Biz bunu onun aşağıdakı çıxışlarında bir daha aydın görürük. Heydər Əliyev çıxışlarının birində demişdir ki, "Mən Moskvada işlərkən Baykal-Amur magistralına on günlük səfərə çıxmışdım. Xabarovski di-

yarının Komsomolsk–Amur şəhərində olarkən böyük bir mağazaya girmişdim. Oradan çıxanda mənimlə görüşmək üçün çoxlu adam toplaşmışdı. Mənə bir neçə azərbaycanlı gənc də yaxınlaşdı. Bu məndən ötrü gözəl hadisə oldu. Onları doğma övladlarım kimi qucaqlayıb öpdüm. Onlar da çox sevindilər və gödüm ki, mənimlə görüşməyi necə sevinclə gözləyirdilər. Soruşdum ki, burada nə edirsiz? Haradan gəlib çıxmısız? Dedilər ki, Siz göndərmisiniz, burada Politexnik institutunda təhsil alırıq.

Bilirsiniz, bu mənim üçün böyük hadisə idi. Təsəvvür edin. Uzaq Şərq, Xabarovsk diyarı Komsomolsk–Amur şəhəri Azərbaycanın kənd yerindən gəlmiş gənclər orada təhsil alırlar. Mən buna çox sevindim. Bəlkə də onların Politexnik institutunun səviyyəsi elə bizim institutun səviyyəsindədir. Ancaq gəlib başqa bir şəhərdə uzaq bir vilayətdə oxumaq, onların mühiti, mədəniyyəti, adət-ənənələri ilə tanış olmaq məgər Azərbaycan gəncləri üçün zərərlidirmi? Yox..” [3, s.171].

Heydər Əliyev Moskvada işlədiyi dövürdə tez-tez orada ali məktəblərdə təhsil alan tələbələrlə görüşlər də keçirmişdir. Bu görüşlərdə onu hər dəfə sevindirirdimişdilər. Bu görüşlər haqqında o öz çıxışlarında Azərbaycanlı tələbələr haqqında müsbət fikirlər söyləmişdir.

Heydər Əliyev Moskvada işlədiyi zaman SSRİ-nin möhkəmləndirilməsi dövlətçiliyin genişləndirilməsi sahəsində bir sıra yenilikləri həyata keçirmişdir.

Heydər Əliyev Moskvada işlədiyi zaman durmadan ölkənin müxtəlif sahələrində yeniliklərin həyata keçirilməsi üçün əlindən gələni etməyə səy göstərmişdir. Lakin, o, 1987-ci ildə Mixail Qorbaçovun irəli sürdüyü yenidən qurma siyasi xəttinə qarşı çıxmış və etiraz əlaməti olaraq tutduğu vəzifədən istefaya getmişdir. Heydər Əliyev Moskvada SSRİ-nin əsas rəhbərlərindən biri kimi yüksək vəzifədə işlədiyi dövürdə ermənilər Azərbaycana qarşı hər hansı bir tələb səsləndirməyə cəsarət etməmişdilər.

1987-ci ildə Heydər Əliyev tutduğu vəzifəsindən uzaqlaşdıqdan sonra ermənilər dərhal fəallaşdılar. Onlar M.Qorbaçovdan istifadə edərək, 1988-ci ildə öz məkirli siyasətlərini həyata keçirməyə başlamışdılar. Heydər Əliyev 1982-ci ildə Siyasi büroya üzv seçildikdən və Moskvada fəaliyyətə başladıqdan sonra Azərbaycanda vəziyyət getdikcə, yavaş-yavaş tənəzzülə uğramağa başlamışdı. Nəinki iqtisadi inkişaf sferasında, eləcə də digər ictimai proseslərdə mənfi meyllər təzahür etmiş və nəticədə Respublikamız bəzi böyük çətinliklərələ üzləşmişdir.

1988-1993-cü illərdə yenidən ermənilər ərazi iddiaları edərək Ermənistanda və Daglıq Qarabağda yaşayan azərbaycanlıları qaçqın və məcburi köçkün halına salmışdılar. Bir milyondan çox azərbaycanlı didərgin halına düşmüşdür. Ermənilər 26 fevral, 1992-ci ildə “Xocalı Soyqırımı”ni törətmişdilər. Ermənilər rus ordusunun köməyi ilə 20 % Azərbaycan torpaqlarını işğal etmişdi. M. Qorbaçovun göstərişi ilə Rus qoşunları 1990-cı ildə Bakıda 20 Yanvar hadisələrini törətmişdir. Yüzlərlə azərbaycanlı qətlə yetirilmişdir.

Heydər Əliyev Azərbaycan xalqına qarşı ədalətsizliyə dözə bilməmiş, sovet ordusunun törətdiyi 20 Yanvar faciəsi ilə əlaqədar 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyinə gəlmiş, orada bəyanatla çıxış edərək xalqımıza qarşı törədilən cinayətin təşkilatçılarının və iştirakçılarının cəzalandırılmasını tələb etmişdir. Əliyevin bu bəyanatı mətbuat orqanları tərəfindən bütün dünya ölkələrinə yayılmışdır.

H.Əliyev 1991-ci ildə SSRİ rəhbərliyinin ermənipərəst Dağlıq Qarabağ siyasətinə qarşı çıxaraq Sovet İttifaqı KP-nin sıralarını tərk etmişdir. 1991-ci il oktyabrın 18-də “Azərbaycan Respublikasının Dövlət müstəqilliyi haqqqında” Konstitusiya Aktı qəbul etmişdir. Konstitusiya aktına görə Azərbaycan Respublikasının 1918-ci il mayın 28-dən 1920-ci il aprelin 28-dək mövcud olmuş Azərbaycan Respublikasının varisi hesab olunur. Bu dövrdə Azərbaycanın parçalanmasına zəmin yaranmışdır. Etnik separatizm və vətəndaş müharibəsi üçün şərait yaranmışdır. “Xalq cəbhəsi” – “Müsavat” rejimi təhlükəli prosesin qarşısını almaqda tamamilə aciz vəziyyətdə qalmışdır [4, s.67].

Bu dövrdə ölkədə vahid komandanlıq yox idi. Ayrı-ayrı siyasi partiyaların, hətta şəxslərin silahlı dəstələri hərbi əməliyyatları öz maraqlarına uyğun aparırdılar.

Erməni işğalçıları Dağlıq Qarabağla birlikdə ətraf 7 rayonu da işğal etmişdilər.

Dağlıq Qarabağ bölgəsinin, sonra isə ətraf rayonların Ermənistan silahlı qüvvələrinin nəzarəti altına keçməsi ölkədə vəziyyəti daha da ağırlaşdırmışdı. Bu da dövlətçiliyin əsaslarına zərbə vurmuşdu [5, s.62]. Bu dövrdə Azərbaycanın ayrı-ayrı bölgələrində vəziyyət olduqca ağır idi. “Xalq Cəbhə-

si”-“Müsavat” hakimiyyətinin iyun ayında Gəncədə Surət Hüseynova qarşı hərbi əməliyyatının uğursuz nəticələnməsi onun səriştəsizliyini bir daha göstərdi. S.Hüseynovun dəstələri Gəncədən Bakıya doğru hücum edir, yolüstü rayonlarda hakimiyyəti ələ keçirirdilər.

Respublikanın cənubunda isə Əlikram Hümbətov Azərbaycanın bir neçə rayonunu ələ keçirmiş, bu ərazilərdə “Talış-Muğan Respublikası” elan edərək separatçı quldur dəstələrini öz ətrafına toplayıb regionda hakimlik edirdi.

Beləliklə, ölkə parçalanmaq və vətəndaş müharibəsi təhlükəsi altında qalmışdı.

Azərbaycanda gedən mürəkkəb ağır proseslərə biganə qala bilməyən Heydər Əliyev 1990-cı il iyunun 20-də Moskvadan Bakıya gəlir. Ancaq respublikanın Ayaz Mütəllibov rəhbərliyi ona Bakıda yaşamasına imkan vermir.

Heydər Əliyev 22 iyulda Naxçıvana gedir. Xalq onu böyük izdihamla qarşılayır. 1990-cı il seçkilərində Heydər Əliyev, M.X.Axundov seçki dairəsindən Naxçıvan MSSR-in xalq deputatı seçilir. Naxçıvan Ali Sovetinin sessiyasında Azərbaycan milli dövlətçiliyinin dirçəlişi istiqamətində tarixi qərarlar qəbul edilir.

Naxçıvan MSSR Ali Sovetinin adı dəyişilərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılır. Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağı Naxçıvan MR-in dövlət bayrağı kimi qəbul edilməsi haqqında milli məclisdə qərar qəbul edilir.

Qısa bir müddətdə Naxçıvanda dövlət quruculuğu və demokratikləşmə prosesi aparılır. Azərbaycanda baş verən ictimai-siyasi proseslər respublikanı böhran vəziyyətinə, parçalanmaq səviyyəsinə və müstəqilliyin itirilməsi həddinə gətirib çıxarmışdı. M.S.Qorbaçov tərəfindən Azərbaycana rəhbər vəzifəyə göndərilən, milli hisslərdən uzaq olan Ə.Vəzirovun hakimiyyəti dövründə 20 Yanvar – Qanlı Bakı qırğını hadisələri törədilmişdir. Ə.Vəzirov Azərbaycandan qaçdıqdan sonra hakimiyyətə A.Mütəllibov gətirilir.

1992-ci ilin martından Azərbaycanda siyasi gərginlik artmışdır. Xalq Cəbhəsinin səriştəsiz liderləri ilə A.Mütəllibov qrupu arasında hakimiyyət uğrunda gedən mübarizə ölkəni xaos və anarxiya vəziyyətinə salmışdır. Bu dövrdə prezident A.Mütəllibov ölkəni idarə edə bilmirdi. O, hakimiyyətdən əl çəkdi. 1992-ci ilin iyun ayında Ə.Elçibəy Azərbaycan prezidenti seçildikdən sonra bütün rəhbər vəzifələrə Xalq Cəbhəsinin üzvləri təyin olundu.

Bu dövrdə Azərbaycanda ictimai-siyasi vəziyyət pisləşməyə başladı. İdarəetmə təcrübəsi olmayan Azərbaycan Xalq Cəbhəsi ölkədəki obyektiv çətinlikləri daha da dərinləşdirdi. Bu dövrdə xalqın həyat şəraiti də xeyli aşağı düşmüşdü.

Müstəqil Azərbaycan dövlətçiliyin möhkəmləndirilməsində Heydər Əliyevin rolu. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər nüfuzlu ziyalısı – alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər, əmək adamları, siyasətçilər “Səs” qəzeti vasitəsilə Heydər Əliyevə hakimiyyətə qayıtmasını müraicət edirlər. 1993-cü il iyunun 9-da Heydər Əliyev Bakıya gəlir. O respublika rəhbərliyinin ona təklif etdiyi yüksək vəzifələrdən imtina edərək Gəncəyə qardaş qanının töküldüyü məkana gedir. Vəziyyəti yerində öyrənməyə üstünlük verir. Oradakı vəziyyətlə və Surət Hüseynovla tanış olur. Sonradan Bakıya qayıdır.

1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilir. İyunun 24-də isə Milli Məclisinin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başlayır. “15 iyun 1993-cü il” Azərbaycan tarixinə “Qurtuluş günü” kimi daxil olur.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə gəlməsi respublikanın tarixi müqəddəratını həll edir. Vətəndaş müharibəsinin qarşısı alınır. Torpaqların işğalı dayandırılır. Respublikanın parçalanması prosesi dayandırılır. 1993-cü il Azərbaycan Respublikası Ali Sovetinin səlahiyyətlərini həyata keçirən Heydər Əliyev avqustun 23-də cənub rayonlarında baş verən hadisələrlə əlaqədar xalqa müraciət etmişdir. Ulu öndərin çağırışına biganə qalmayan Azərbaycanın cənub rayonlarının xalq kütləsi Əlikram Hümbətovun quldur dəstəsini cənubdan tədricən təmizləyir. Bununla da Azərbaycan parçalanmaq və vətəndaş müharibəsi təhlükəsindən uzaqlaşmış olur [6, s.68].

Heydər Əliyev 1993-cü il oktyabr ayının 3-də keçirilən səsvermə nəticəsində Azərbaycan Respublikasının prezidenti seçilir.

1993-cü ildən Heydər Əliyev bütün Azərbaycan vətəndaşlarının dilindən, dinindən, etnik mənsubiyyətindən aslı olmayaraq ölkənin iqtisadiyyatını dəstəkləyən insanların vahid dövlətçilik ətrafında birləşməsi üçün ciddi iş aparmağa başlayır.

Heydər Əliyev ilk gündən inkişaf strategiyasını müəyyən edir. Inkişafın Azərbaycan modelini yaratdı və hakimiyyətin düzgün srategiyasını müəyyənləşdirdi. Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxartdı [7, s.166].

Heydər Əliyev qeyd etmişdir ki, "Azərbaycan Respublikasında demokratik, hüquqi dövlət qurulmaqdadır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir. Öz tarixi, Milli ənənələrindən bəhrənələrək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir" [8, s.35].

Heydər Əliyevin 12 noyabr 1995-ci ildə qəbul edilmiş "Azərbaycan Respublikasının Konstitutsiyası"nın hazırlanmasında böyük xidməti olmuşdur.

Heydər Əliyev yeni yaranmış Konstitutsiya haqqında demişdir ki, "Konstitutsiya birinci növbədə dövlətə hakimiyyət və xalq arasında olan münasibətləri özündə əks etdirmişdir. Hakimiyyət bölgüsü, ali icra, qanunvericiçilik, məhkəmə hakimiyyətləri bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olmalıdır. Xalq dövlət üçün yox, dövlət xalq üçün olmalıdır və bu prinsiplər Konstitutsiyamızın əsasını təşkil etməlidir" [9, s.3].

Konstitutsiyanın 25-ci maddəsində deyilir ki, "Dövlət irqindən, dinindən, milliyətindən, dilindən, cinsindən, mənsubiyyətindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqına və digər ictimai birliklərə mənsubiyyətindən aslı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir" [9, s.5].

Bu baxımdan Heydər Əliyev fəaliyyətinin ilk günündən Azərbaycanda yenicə əldə olunmuş müstəqilliyi möhkəmləndirmək, demokratik, hüquqi, dünyavi dövlət yaratmaq, respublikanın ərazi bütövlüyünün qorunub saxlanılması prinsiplərini rəhbər tutmuşdur. O, suveren Azərbaycan dövlətinin daxili və xarici siyasəti sayəsində qüdrətli dövlətə çevrilməsi üçün qətiyyətli addımlar atmışdır. 1994-cü ildə onun səyi nəticəsində Ermənistan -Azərbaycan münaqişəsiinin ATƏT-in Minski qurupu çərçivəsində dinc danışıqlar yolu ilə nizama salınması prinsipi ön plana çəkilir. Ermənistan-Azərbaycan arasında atəşkəs müqaviləsi bağlanır.

Heydər Əliyev Azərbaycan gənclərinin birinci forumunda demişdir ki,"Bizim vəzifəmiz, dövlət orqanlarının vəzifəsi, hakimiyyət orqanlarının vəzifəsi gənclərə diqqət artırmaq, gənclər probleminin həll olunması ilə bundan sonra daha da yaxından məşğul olmaq və lazımi tədbirlər görməkdən ibarətdir " [10, s.4].

Heydər Əliyev Azərbaycan Respublikasının qonşu dövlətlərlə sıx əməkdaşlıq xəttinə sadiq qalmaqla yanaşı, dünyanın aparıcı nüfuzlu dövlətləri ilə də geniş əlaqələr yaradılmasına böyük əhəmiyyət verirdi. O, uzaqgörən siyasəti sayəsində Azərbaycanın strateji milli maraqlarını nəzərə alaraq, düşünülmüş, müdrik siyasi xəttin işlənib hazırlanmasına və həyata keşirilməsinə çalışırdı.

Heydər Əliyev ölkəmizin məruz qaldığı çoxsaylı problemlərinin müvəffəqiyyətli həlli üçün dünyanın inkişaf etmiş böyük dövlətləri ilə əlaqələrin yaranmasına diqqəti daha da artırırdı. İlk növbədə keçmiş sələflərinin daxili və xariçi siyasət sayəsində buraxdığı səhfləri aradan qaldıraraq, təkrar etmək üçün uzaqgörənliklə gələcək üçün səmərəli fikirlər, ideyalar irəli sürdü, müstəqilliyimizi möhkəmlətmək naminə planlar, konsepsiyalar işləyib hazırladı. Bu konsepsiya və planlar Azərbaycan dövlətinin strateji maraqlarına xidmət edirdi. O, xarici dövlətlərlə yeni beynəlxalq münasibətlərin yaranmasına diqqət yetirmişdir.

O, respublikanın sosial-iqtisadi inkişafın təmin edilməsi neft sektorundan başladı. Bu onun işləyib hazırladığı dəyərli neft strategiyası idi. Bu strategiya həyata keçirildi.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft boru kəmərinin çəkilişini o zaman çoxları əfsanə hesab etdikləri halda ümummilli lider onun mumkunlüyünü sübuta yetirdi.

O, 1994-cü il sentyabrın 20-də "Əsrin müqaviləsi"nin imzalanması mərasiminin açılışında demişdir ki, "Biz müqaviləni imzalamaqla Azərbaycan Respublikasının suveren hüquqlarının bərqərar olduğunu, xalqımızın öz sərvətinə özünün sahib olduğunu dünyaya bir daha nümayiş etdiririk. Bu müqavilə Azərbaycan Respublikasının dünya birliyində layiqli yer tutmasına kömək edəcək. Ölkəmizin iqtisadiyyatını dünya iqtisadiyyatı, sərbəst bazar iqtisadiyyatı ilə sıx bağlayacaqdır. Ən diqqətə

layiqi olan ondan ibarətdir ki, bu müqavilə Azərbaycan xalqının bu gününə, gələcəyinə böyük mənfəətlər verəcək, onun rifah halının yüksəlməsi üçün zəmin yaradacaqdır" [11, s.254].

30 ildən artıq Azərbaycana rəhbərlik edən bu şəxsiyyət, xalqın ictimai-siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində yaxından iştirak etmişdir.

Heydər Əliyev dünya azərbaycanlılarının ümumiliyi, birləşməsi ideyasını ilk dəfə irəli sürmüşdür. Onun 2-ci dəfə hakimiyyətə gəlişi ölkəni vətəndaş müharibəsi təhlükəsindən, ictimai-siyasi hərc-mərclikdən xilas etmişdir.

O, Azərbaycan həqiqətlərini bütün dünyaya çatdıra bilmişdir. Onun sayəsində Azərbaycan öz milli-mənəvi dəyərlərini qoruyaraq üçüncü minilliyə inamla qədəm qoymuşdur.

Heydər Əliyev uzaqgörən şəxsiyyət kimi tarixi hadisələrin gedişini irəlicədən görə bilirdi.

O, geniş fəlsəfi və siyasi dünyagörüşünə malik bir şəxsiyyət olmuşdur.

Azərbaycanın dövlət suvernliyi və iqtisadi müstəqilliyi, xarici siyasəti, xarici iqtisadi əlaqələrinin sistemli olaraq genişləndirilməsi Azərbaycanın dünya miqyasında tanınması və s. onun adı ilə bağlıdır. Bu böyük siyasi lider Azərbaycanda Milli Ordunun formalaşmasında da böyük işlər görmüşdür.

O, demokratik dövlət quruculuq istiqamətində davamlı siyasət yeridərək, ölkədə insan hüquq və azadlıqlarının başlıca prinsiplərinin bərqərar olması üçün əsaslı zəmin yaratmışdır.

Heydər Əliyev Azərbaycan dövlətşılıyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli fikirlər irəli sürmüşdür.

Beynəlxalq aləmdə Azərbaycanın bütövlüyünün tanınması, ona hörmət edilməsi prinsipi və s. reallaşdırmışdır. Azərbaycanda milli müstəqilliyin möhkəmləndirilməsi, dövlətin hüquqlarına hörmətlə yanaşma, mübahisəli məsələlərin sülh yolu ilə həll edilməsi, ölkələr arasında qarşılıqlı surətdə faydalı iqtisadi, elmi və mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrin genişlənməsi və digər məsələlərə ciddi diqqət yetirilmişdir.

2003-cü il prezident seçkiləri zamanı ümumilli lidrrimiz Heydər Əliyev Azərbaycan xalqına ünvanladığı müraciətdə İlham Əliyev haqqında demişdir: "O, yüksək intelektli, proqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafına sıx birləşdirərək, Azərbaycan dövlətinin firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, Mənim axıra çatdıra bilmədiyim məsələləri, planları, işləri, sizin köməkliyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümüdlər bəsləyirəm" [12, s.240].

Nəticə. İlham Əliyev 2003-cü ildə seçicilərin böyük əksəriyyətinin iradəsi ilə Azərbaycan Respublikasının Prezidenti seçıldi. O, Heydər Əliyev tərəfindən əsası qoyulmuş demokratik dövlət quruculuğu prosesinin yeni tarixi şəraitdə davam etdirilməsinin zəruriliyini başa düşərək, dövlət idarəçiliyini, müasir dünya siyasətinin əsas istiqamətinə uyğunlaşdıraraq həyata keçirir. İlham Əliyev Respublikada demokratiyanın bərqərar olmasına, inkişafına diqqət yetirərək insan hüquq və azadlıqlarının təmin olunmasına da ciddi əhəmiyyət verir. Heydər Əliyevin həyata keçirilməsinə çalışdığı ictimai-siyasi, iqtisadi və mədəni həyatın bütün məsələlərinə bu gün böyük diqqət yetirilir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev onun daxili və xarici siyasət xəttini ardıcıl surətdə yerinə yetirir.

ƏDƏBİYYAT

1. Azərbaycan Sovet Ensiklopediyası. IV cild. Bakı: Qızıl Şərq, 1980, 592 s.
2. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. I kitab. Bakı: Azərnəşr, 1997, 568 s.
3. Səfərov S.İ. İlham Əliyev dinamik inkişafın uğurlu gələcəyin təminatçısı. Bakı: Təhsil, 2008, 450 s.
4. Mehdiyev R.Ə. Demokratiya yolunda: İrs haqqında düşünərkən. Bakı: Şərq-Qərb, 2008, 788 s.
5. Abbasov V.M. Liderlik fəlsəfəsi. Bakı: Təhsil, 2004, 119 s.
6. Hüseynov İ.M. Müstəqil Azərbaycan dövlətinin quruluşu. Bakı: Təhsil, 2004, 472 s.
7. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. II kitab. Bakı: Azərnəşr, 1997, 604 s.
8. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Təhsil, 2009, 141 s.

9. İbrahimov Nazim. Müstəqil Azrbaycanın gələcəyi gənclərdi. Bakı: Azərbaycan nəşriyyatı, 1996, 25s.
10. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. III kitab. Bakı: Azərnəşr, 1998, 596 s.
11. Əliyev Heydər. Müstəqilliyimiz əbədidir. 45 cild. Bakı: Azərnəşr, 2013.

ИСМАИЛ ЭЙЮБОВ
Доцент кафедры Политология и социология
Бакинского Государственного Университета,
Член Союза Журналистики

ГЕЙДАР АЛИЕВ ОСНОВАТЕЛЬ НЕЗАВИСИМОЙ РЕСПУБЛИКИ АЗЕРБАЙДЖАНА

14 июня 1969 года Гейдар Алиев, долгое время занимавший высокие посты в органах государственной безопасности Азербайджанской Республики, был избран. Первым секретарем Азербайджанского ССР.

В то же время говорят, что Гейдар Алиев превратил Азербайджанскую Республику в одну из самых передовых республик СССР.

В статье также упоминается, что Гейдар Алиев занимал должность заместителя Председателя Совета Министров СССР с 1982 по 1987 год. 3 октября 1993 года Гейдар Алиев был избран Президентом Независимой Азербайджанской Республики. До конца своей жизни он упорно трудился во имя всестороннего азербайджанской государственности.

Ключевые слова: Гейдар Алиев, политический деятель, развитие и сохранение азербайджанской государственности, служба Гейдара Алиева в советское время, роль Гейдара Алиева в развитии независимой азербайджанской государственности.

ISMAYIL EYUBOV
BSU, Department of Political science and Sociology,
The member of Press Unity

HEYDAR ALIYEV IS THE FOUNDER OF THE INDEPENDENT REPUBLIC OF AZERBAIJAN

On 14 June 1969, Heydar Aliyev, who had long held high hosts in the state security bodies of the Republic of Azerbaijan, was elected First Secretary of the Communist Party of Azerbaijan.

At the same time, it is said that Heydar Aliyev transformed the republic of Azerbaijan into one of the most advanced republic of the USSR.

The article also mentions that Heydar Aliyev served as Deputy Chairman of the USSR Council of Minister from 1982 to 1987. On October 3, 1993, Heydar Aliyev was elected President of the Independent Republic of Azerbaijan. Until the end of his life, he worked hard for the comprehensive development of Azerbaijani statehood.

Keywords: Heydar Aliyev, politician, development and preservation of Azerbaijani statehood, Heydar Aliyev's service in the Soviet era, the role of Heydar Aliyev in the development of independent Azerbaijani statehood.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 13 iyun 2023-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 05 oktyabr 2023-cü il.
Rəyçilər: s.e.d. Laçın Abışov, t.e.d. İbrahim Zeynalov.